# Ədliyyə işçiləri peşə bayramlarını qeyd etmişlər



Artıq 10-cu ildir ki, Azərbaycan ədliyyə işçiləri noyabrın 22-də öz peşə bayramlarını iftixar hissi ilə təntənəli şəkildə qeyd edirlər.

Peşə bayramı ilə əlaqədar rayon məhkəməsinin hakimləri və əməkdaşları, rayonun ədliyyə işçiləri, rayon icra hakimiyyətinin və hüquq mühafizə orqanlarının rəhbər şəxsləri xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişlər.

Sonra bayram tədbirinin iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirmişlər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Heydər Əliyev mərkəzində

***Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının 25-ci il dönümü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə rayon mərkəzləşdirilmiş kitabxanalar sisteminin, tarix-diyarşünaslıq muzeyinin işçiləri, şəhər 1 və 3 nömrəli məktəblərin bir qrup müəllimləri iştirak etmişdir.***



Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva tədbiri açaraq 21 noyabr 1992-ci il tarixdə mürəkkəb ictimai-siyasi şəraitdə yaradılan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol barədə danışmışdır. Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədə yaranmış siyasi böhranla əlaqədar teztez baş verən hakimiyyət dəyişiklikləri, daxili qarşıdurmalar nəticəsində qorxulu vəziyyət yarandığını qeyd edən Zərxanım Ağayeva belə məqamda milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyulduğunu diqqətə çatdırmış, Vətənimizin gələcəyini düşünən ziyalıların müraciətinə cavab olaraq ulu öndər Heydər Əliyevin belə bir partiya yaratmaq missiyasının məsuliyyətini öz üzərinə götürdüyünü, partiyanın proqram və nizamnaməsini şəxsən özü hazırladığını qeyd etmişdir. Zərxanım Ağayeva partiyanın 21 noyabr 1992-ci il tarixdə keçirilən təsis konfransında ümummilli lider Heydər Əliyevin partiyanın sədri seçildiyini bildirmişdir.

Sonda ulu öndərin siyasi fəaliyyətini əks etdirən film nümayiş etdirilmişdir.

**Günel Tapdıqqızı,**
**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir




***Noyabrın 18-də AMEA-nın Coğrafiya İnstitutunun təşkilatçılığı ilə Qəbələ Arxeoloyi Mərkəzində Azərbaycanın görkəmli coğrafiyaçısı, akademik Həsən Əlirza oğlu Əliyevin 110 illik yubileynə həsr olunmuş görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin, kənd təsərrüfatı idarəsinin işçiləri, məşə təsərrüfatı və ekologiya üzrə mütəxəssislər, inzibati ərazilər üzrə icra nümayəndələri, ümumtəhsil məktəblərinin coğrafiya müəllimləri iştirak ediblər.***

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova tədbiri giriş sözü ilə açaraq dövrünün görkəmli torpaqşünas alimi, akademik Həsən Əliyevin Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasındakı, bir sıra yeni elm sahələrinin bugünkü simasının müəyyənləşməsi istiqamətində müstəsna xidmətlərindən söhbət açıb. Ətayə Osmanova eyni zamanda Qəbələnin tarixi, bu günkü inkişaf səviyyəsi və burada keçirilən ölkə və beynəlxalq miqyaslı tədbirlər haqqında görüş iştirakçılarına geniş məlumat verib



AMEA Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov "Akademik Həsən Əliyevin elmi və ictimai fəaliyyəti" movzusunda geniş məruzə edib, onun Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində əvəzsiz xidmətlərindən danışıb. Alim çıxışında qeyd edib ki, ölkə başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin 110 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə Coğrafiya İnstitutu tədbirlər planı hazırlamış və həmin plana əsasən il boyu müxtəlif tədbirlər— konfranslar, sərgilər, görüşlər, seminarlar və s. təşkil edilir.

Ekocoğrafiya şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru Ənvər Əliyev alim haqqında məruzəsində Həsən Əliyevi həm elmi rəhbəri, həm şöbə müdiri, həm də institut direktoru kimi xarakterizə edərək onu insanlıq, alimlik, haq-ədalət simvoluna çevrilən bir dağ, bir azərbaycanlı kişi adlandırıb. Məruzəçi bildirib ki, Həsən Əliyev bütün həyatı ilə mükəmməl tədqiqatçı olmaqla yanaşı, böyük hörmət sahibi, el ağsaqqalı, vətənini ürəkdən sevən əsil azərbaycanlı olduğunu sübut etmişdir.

İnstitutun Azərbaycanın torpaq ehtiyatları coğrafiyası şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru İsmayıl Quliyev "Akademik Həsən Əliyev görkəmli ekoloq kimi" mövzusunda məruzə edib, torpaqşünas alimin elmi tədqiqat işlərindən, nəşr fəaliyyətindən, Azərbaycanın torpaq xəritəsinin tərtibindəki əməyindən və s. söhbət açıb.

Qəbələ Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahib Əhmədov akademik Həsən Əliyev haqqında xatirələrindən danışıb, onun insanlara olan qayğıkeş münasibətindən, ölkəmiz üçün kadrlar hazırladığından, Azərbaycan təbiətinə və elminə verdiyi tohfələrdən söhbət açıb.

Tədbirin gedişi boyu Həsən Əliyevin fəaliyyətinə həsr olunmuş kinolent nümayiş etdirilib. Sonda akademik Ramiz Məmmədov Coğrafiya İnstitutunun nəşri olan kitabları və atlası Qəbələ Arxeoloji Mərkəzinin kitabxanasına hədiyyə edib.

**Vüsal SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**

***Nic qəsəbəsi rayonun ən çox əhali yaşayan 3 qəsəbəsindən biridir. Tolerantlığa nəinki Qəbələdə, həm də respublikada nümunə olan bu qəsəbədə udilər, azərbaycanlılar, ləzgilər və az sayda digər xalqların nümayəndələri yaşayırlar. Onlar bir-birinin dininə, dilinə və adət-ənənələrinə qarşılıqlı hörmət edərək, bir-birinin xeyir-şərində iştirak edir, təsərrüfatın müxtəlif sahələrində əlbir çalışırlar.***

# Maraqlı yarış

*Qəsəbədə fəaliyyət göstərən «Orayin» («Bulaq») Udi Mədəniyyət Mərkəzində bu yaxınlarda stolüstü idman oyunları yarışı keçirmişdir.*

*İdmanın şahmat, dama və nərd növləri üzrə keçirilən yarışda yüzə qədər həvəskar idmançı birincilik uğrunda bir aya qədər gərgin mübarizə aparmışlar.*

*Şahmat üzrə yarışda birinci yer Qəribov Adil Eyyub oğluna qismət olmuşdur. İkinci yeri Baxışov Zaur Ələğə oğlu tutmuşdur. Üçüncü yerə isə Vezirov Gena Mixək oğlu çıxmışdır.*

*Dama üzrə keçirilən yarışda Qəribov Adil Eyyub oğlu bacarıqlı idmançı olduğunu sübut edərək şahmatda olduğu kimi, dama oyunlarında da qələbə qazanaraq birinci yerin sahibi olmuşdur. İkinci yeri Cotari Romik Fransoviç, üçüncü yeri isə Ququşov Artuş Sergeyeviç tutmuşdur.*

*Nərd üzrə yarışlar daha maraqla keçmişdir. Bu növ üzrə mübarizə aparanlar 70 yaşdan yuxarı ağsaqqallar idi.*

*Onların da bir aya qədər davam edən gərgin mübarizəsi uğurla başa çatmışdır. Bu növ üzrə birinci yerin sahibi 78 yaşlı Osipov Rafiq Setrokoviç olmuşdur.*

*Ağsaqqalların gərgin mübarizə apardığı bu yarışda ikinci yer Quqasi Vaçik Arakeloviçə nəsib (76 yaş) olmuşdur.*

*Üçüncü yerə isə 76 yaşlı Qanqalov Qrişa Baqratoviç çıxmışdır.*

*Tədbir hamı tərəfindən bəyənilmiş, idmançı və tamaşaçılarda xoş təəssürat yaratmışdır.*

*Qaliblər «Orayin» Udi Mədəniyyət Mərkəzi tərəfindən fəxri fərmanlarla və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.*

*Əhməd MƏMMƏDLİ,*
*«Qəbələ»nin müxbir postunun rəhbəri.*